# Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

«Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti bir ay müddətində:

- qüvvədə olan müvafiq qanunvericilik aktlarının «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
- «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 5-ci bəndində nəzərdə tutulmuş Əsərin qeydiyyatı haqqında şəhadətnamənin nümunəsini təsdiq etsin;
- «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikası Qanununun 40-cı maddəsinin altıncı abzasında nəzərdə tutulmuş müəllif qonorarının minimum məbləğini müəyyən etsin;
- öz səlahiyyətləri daxilində «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikası Qanununun müddəalarından irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

- «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikasının Qanununun 8-ci maddəsinin 4-cü bəndində, 17-ci maddəsinin 4-cü bəndində, 27-ci maddəsinin 2-ci bəndində, 29-cu maddəsinin 2-ci bəndində, 37-ci maddəsinin 3-cü bəndində, 40-cı maddəsinin yeddinci və on beşinci abzaslarında, 43-cu maddəsinin 1-ci bəndinin 4-cü yarımbəndində və 3-cü bəndində, habelə 46-cı maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş «Azərbaycan Respublikasının müəlliflik hüquqları sahəsində fəaliyyət göstərən müvafiq icra hakimiyyəti orqanının» səlahiyyətlərini Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi həyata keçirir.
- «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikasının Qanununun 27-ci maddəsinin 2-ci bəndində və 40-cı maddəsinin altıncı abzasında nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanının» səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV.***

*Bakı şəhəri, 8 oktyabr 1996-cı il.*

*№ 438.*

*«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc olunmuşdur (30 sentyabr 1997-ci il, № 3, maddə 168)*